# Azərbaycanın "yaşıl enerji" siyasəti hərtərəfli inkişafa təkan verir

**Müasir dövrdə dünyada qlobal ekoloji problemlər yeni "təmiz enerji" mənbələrinin axtarışı və tətbiqini zəruri edir. Hazırda enerjiyə artan tələbatın ödənilməsi dünyanın üzləşdiyi əsas problemlərdəndir.**

Belə ki, bərpa olunmayan enerji mənbələrinin - neft, qaz, daş kömürün nə vaxtsa tükənəcəyi reallıqdır. Digər tərəfdən də ənənəvi enerjinin istismarının planetimizin ekoloji vəziyyətinə mənfi təsiri getdikcə daha qabarıq şəkildə özünü göstərir. Bu halda bərpaolunan alternativ enerji mənbələrinin




mənimsənilməsi məsələsi ön plana çıxır. Bu səbəbdəndir ki, bir sıra inkişaf etmiş dövlətlər enerji təhlükəsizliyinin təmin edilməsi və bərpaolunan alternativ enerji mənbələrinin mənimsənilməsi məsələsini prioritet hesab edir. Külək, günəş, dalğa və kiçik çayların hidroloji enerjisi məhz belə mənbələrdən sayılır və potensial imkanları hədsiz və tükənməzdir.

**(davamı 7-ci səhifədə)**

COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!




*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Cari il noyabrın 11-23-də Bakıda keçirilən COP29-un yekun iclasında mühüm qərarlar qəbul olundu.*

**COP29**
**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası**






# Azərbaycanın "yaşıl enerji" siyasəti hərtərəfli inkişafa təkan verir









(əvvəli 1-ci səhifədə)

Azərbaycanın enerji resurslarının dünya bazarına çıxarılması istiqamətində ümummilli lider Heydər Əliyevin 1994-cü ildə imzaladığı "Əsrin müqaviləsi" ilə başlanan uğurlu siyasət bu gün "yaşıl enerji" formasında uğurla davam etdirilir.

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioriteti müəyyənləşdirilib. Həmin prioritetlərdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi istiqaməti qarşıya yeni vəzifələr qoyub. Qlobal iqlim dəyişmələrinin təsirini nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqi, təbii enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi dövlətin əsas diqqət mərkəzində olan məsələlərdəndir.

Azərbaycanda təmiz ətraf mühitə və "yaşıl enerji" məkanına nail olmaq üçün ərazi bütövlüyümüzün bərpa olunduğu son 4 il ərzində iqtisadi artımla ekoloji tarazlığın təmin olunması, ölkədə ümumi ərazilərdə yaşıllıqların payının artırılması istiqamətində genişmiqyaslı tədbirlər görülür. Ölkəmizdə alternativ və bərpaolunan enerji mənbələrinin inkişafı üçün böyük potensial mövcuddur. Belə ki, dövlətimiz 2030-cu ilə qədər bərpaolunan enerji sahəsində quraşdırılmış gücləri 30 faizə qədər artırmaq, Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonasına çevirmək kimi mühüm məqsədləri qarşısına qoyub. "Yaşıl enerji" zonasının yaradılması, dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar və azad edilmiş ərazilərdə minlərlə hektar sahəni meşələrin bərpası vasitəsilə 2050-ci ilə qədər "neytral karbon" zonasına çevirmək əzmindədir.

Mütəxəssislər hesablayıblar ki, 3000 kVt-ya qədər gücə malik elektrik stansiyaları qurmaqla ildə 13 min ton şərti yanacağa qənaət etmək, atmosferə atılan karbon qazının miqdarını 23 min ton azaltmaq olar. Rəsmi mənbələrə istinad etsək, ölkəmizdə külək enerjisinin illik potensialı 800 Mvt, yəni 4 milyard kvt/saat təşkil edir. Bu isə ildə 1 milyon ton şərti yanacağa qənaət edilməsi, atmosferə 3,7 milyon ton karbon qazının atılmasının qarşısını almaq deməkdir. Ölkəmizdə bu sahədə geniş imkanlar mövcuddur. Abşeron regionunda külək enerjisindən sənaye məqsədləri üçün istifadə kifayət qədər sərfəlidir. Bakıətrafı ərazilərdə ilin orta hesabla 250 günü küləkli olur. Hesablamalara görə, normal külək enerjisindən istifadə etmək üçün onun sürəti saniyədə 3-4 metr olmalıdır. Paytaxtımızda isə küləyin orta illik sürəti saniyədə 11 metrdən çoxdur.

Azərbaycan coğrafi mövqeyinə görə günəş enerjisi ehtiyatları ilə də zəngindir. Xüsusilə, Abşeron yarımadasında və Xəzər dənizinin sahilboyu ərazisində günəş işığının müddəti il ərzində 2500, respublikanın bəzi bölgələrində isə 2900 saata çatır. Xarici mənbələrə görə, il ərzində bir kvadratmetr yer səthinə düşən günəş enerjisinin miqdarı ABŞ-da 1500-2000 kVt/s, Rusiyada 800-1600 kVt/s, Azərbaycanda isə 1500-2100 kVt/s təşkil edir. Göründüyü kimi, ölkəmizin günəş enerjisindən istifadə potensialı xeyli yüksəkdir. Qeyd edək ki, Azərbaycanda ildə 300 günəşli və 270 küləkli günün olması regionda günəş energetikasının inkişafını şərtləndirən əsas amillərdəndir.

2020-ci il yanvarın 9-da Azərbaycanın Energetika Nazirliyi ilə "ACWA Power" və "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin reallaşdırılmasına dair icra müqavilələri imzalanıb. Müqavilələrə əsasən, "ACWA Power" şirkəti ilə Azərbaycanda 240 MVt gücündə külək, "Masdar" şirkəti ilə 200 MVt-lıq günəş stansiyalarının tikintisi ilə bağlı pilot layihələr mühüm əhəmiyyət kəsb edir. Külək və günəş enerjisi layihələri üzrə ümumilikdə ildə təxminən 1,4 mlrd. kVt-saat elektrik enerjisinin istehsalı planlaşdırılır. Bu şirkətlər ölkəmizdə bərpaolunan enerji sahəsində həyata keçirəcək pilot layihələr çərçivəsində 400 mln. ABŞ dollarına yaxın sərmayə yatıracaq. Sözügedən stansiyaların istifadəyə verilməsi ildə 300 mln. kubmetr qaza qənaət etməyə imkan yaradacaq ki, bu da respublikada əhali üzrə qaz istehlakının 10 faizinə bərabərdir.

2022-ci il yanvarın 13-də Gülüstan sarayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bu stansiya Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq. Layihənin investisiya dəyəri 300 milyon ABŞ dolları həcmində qiymətləndirilir. Bu obyektin istifadəyə verilməsi ildə 220 milyon kubmetr təbii qaza qənaət etməyə imkan verəcək. Bu, atmosferə 400 min ton karbon qazının buraxılmasının qarşısını almaq deməkdir.

Onu da nəzərə çatdıraq ki, Ermənistanın 30 ilə yaxın müddətdə davam edən hərbi təcavüzü nəticəsində ölkəmizin təbiətinə, bioloji müxtəlifliyinə, su hövzələrinə, ümumilikdə işğal altında olan ərazilərin ekologiyasına ciddi ziyan dəymişdir. İşğalçı ölkənin qadağan olunmuş silahlardan istifadəsi nəticəsində ətraf mühit fiziki və kimyəvi çirklənməyə məruz qalmaqla yanaşı, burada müxtəlif nadir bitki və heyvan növləri məhv edilmiş, flora və faunaya külli miqdarda ziyan vurulmuşdur. Təmiz su mənbələrinin kimyəvi çirklənməsi nəticəsində çay və göllərdə özü-özünü tənzimləmə prosesi dayanmış, nəticədə su hövzələri bütün canlılar üçün zərərli, ölü zonaya çevrilmişdir. İşğal dövründə dövlətimiz dəfələrlə bu problemi beynəlxalq ictimaiyyət qarşısında qaldırmış, lakin həmişəki kimi Ermənistana yetərli təzyiq olmamışdır. Ermənilər Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyasını məhv etmişlər.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Prezident İlham Əliyevin 3 may 2021-ci il tarixli Sərəncamı ilə beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi nəzərdə tutulmuşdur. Sərəncamın icrası istiqamətində Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanılmış və müvafiq Konsepsiya sənədi hazırlanmışdır. Konsepsiyanın məqsədi Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz "yaşıl enerji" ilə təmin etmək enerji səmərəliliyinə malik "yaşıl texnologiya"ların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır.

Azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayan dövlətimiz elektroenergetika sahəsinə də böyük diqqət göstərir. Bu ərazilərdə cəmi bir il ərzində 7 yarımstansiya yaradılıb. Kəlbəcər və Laçın rayonlarında su elektrik stansiyalarının sayının 30-dan çox olacağı planlaşdırılır. Aparılmış dəqiq təhlillər nəticəsində məlum olub ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalı mümkündür.

Bununla yanaşı, dövlətimiz tərəfindən 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (COP26) baza ili ilə müqayisədə 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılması və işğaldan azad edilmiş ərazilərdə "xalis sıfır emissiya" zonası yaradılması niyyəti bəyan edilmişdir. Bu da öz növbəsində işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsinə töhfə verir. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur. Eyni zamanda ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilmişdir. Tərtərçay, Həkəri və bu çayların qollarında böyük hidroenerji potensialı var.

COP29 çərçivəsində noyabrın 20-də Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi (BOEMDA), Clean Energy Invest LLC və Baltech Green LLC arasında Kəlbəcər Külək Elektrik Stansiyasının inkişafına dair Anlaşma Memorandumu (MoU) imzalanıb. Bu 3100 metr hündürlükdə həyata keçiriləcək unikal bir layihədir. Clean Energy Invest LLC və Baltech Green LLC layihə çərçivəsində birgə müəssisə yaradaraq yaxın zamanda ölçmə kampaniyalarına və layihə hazırlıqlarına başlayacaq. Külək elektrik stansiyasının 200-240 MVt gücündə 2028-ci ilin əvvəlində kommersiya fəaliyyətinə başlaması gözlənilir. Ərazinin yüksəkliyinin yaratdığı əlverişli şərait sayəsində layihənin ümumi gücü gələcəkdə 600 MVt-ya qədər çatdırılması potensialına malikdir. Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda ictimai binaların günəş panelləri ilə təchiz olunması, yolların və küçələrin işıqlandırılmasında bərpaolunan enerjidən istifadə, bununla yanaşı dayanacaqlarda digər "yaşıl enerji" konseptləri də nəzərdə tutulur. Qaz təchizatı ilə təmin olunmayan binalarda isə təbii ki, artıq istilik enerjisinin alınması məqsədilə müəyyən qurğuların quraşdırılması və isti suyun əldə olunması üçün müəyyən yanaşmaların tətbiqi də planlaşdırılır. "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı 2022-2026-cı illəri əhatə edən tədbirlər yalnız bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti də əhatə edir. Bu çərçivədə azad olunan ərazilərdə ümumi gücü 636 kVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox evdə günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, 2300-ə yaxın LED lampalarla təchiz olunmuş və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, "ağıllı" dayanacaqlar, elektrikdoldurma məntəqələri quraşdırılıb.

2023-cü ildə "yaşıl enerji" ilə bağlı ilk Yaşıl Enerji Məşvərət Şurası keçirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Yaşıl Enerji" Zonasının yaradılması ilə bağlı tədbirlər reallaşdırılıb. Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixracı istiqamətində də çox ciddi layihələrin icrasına başlanılıb.

Alternativ enerji mənbələrinin istifadəsi bu potensialın yüksək olduğu və ənənəvi yanacaq resurslarının çatışmadığı rayonlarda daha perspektivlidir. Azərbaycanda bu cür yerlər ucqar dağ kəndləri və dağlıq ərazilərdir. Azərbaycanın "Yaşıl enerji" strategiyasına keçidi enerji təhlükəsizliyinə verilən əvəzsiz töhfədir. Bütün bunlar onu göstərir ki, dövlətimiz nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda elektrik enerjisinin istehsalçısı və ixracatçısı olacaqdır. 2022-ci il dekabrın 17-də Rumıniyanın Buxarest şəhərində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması Azərbaycanın bu sahədə potensialının realizə olunmasını və dünyanın enerji bazarında əhəmiyyətli rolunun daha da yüksəlməsini şərtləndirir. Belə ki, respublikanın bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Qonşu ölkələrdə, ümumilikdə Avropa qitəsində isə elektrik enerjisinə böyük ehtiyac var. Buna görə də dünyanın aparıcı enerji şirkətləri Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə təşəbbüs göstərirlər.

Məhz dövlətimizin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Bakıda keçirildi. COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməklə ölkəmiz ətraf mühitə verdiyi önəmi, böyük mənada isə sağlam bir dünyanın gələcək nəsillərə ötürülməsinə biganə qalmadığını göstərdi. Bu, həmçinin ölkəmizin "yaşıl enerji" siyasətinə qlobal dəstəyini ifadə edir. Xüsusilə də enerji mənbələrinin transformasiyası, "yaşıl iqtisadi siyasət"lərin, o cümlədən dairəvi iqtisadiyyatın təşəkkülü, resursların səmərəli istifadəsi və ətraf mühitin mühafizəsi baxımından potensial yüksəkdir. COP29 çərçivəsində müzakirə edilən məsələlərə müvafiq diqqət ayrılarsa, bütün maraqlı tərəflər bu prosesdən faydalanacaq.

**Bayram SALMANOV,**
**"Respublika".**